**Bu gün Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri hesab edilən Qobustanda, Gəmiqayada daş üzərində rəsmlər bədii oyma sənətinin ilkin nümunələridir. Bu sənət daş, ağac, sümük və başqa materiallar üzərində də yaradılır.**



# Oymalardan aşkarlanan gözəllik



Çağdaş sənətkarlarımızın bədii oyma nümunələri də maraqlıdır. Gəncədə bu sahənin ustadlarından biri Saləddin Məhərrəmovdur. O, 1970-ci ildə Gəncə Uşaq Rəssamlıq Məktəbini, 1979-cu ildə isə Gəncə Pedaqoji Texnikumunun rəssamlıq fakültəsini bitirib. 2011-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Saləddin müəllim deyir ki, oymaçı olmaq insandan iki şey tələb edir: rəssamlıq qabiliyyəti və böyük səbr. "Təxminən



30 ildir, bu sənətlə məşğulam. Təbiət vurğunu olduğum üçün gözəllikləri ağac üzərində cilaladıqca zövq alıram. Hər bir ağacın öz naxışı, öz gözəlliyi var. Bunu görmək, duymaq lazımdır".

İstedadlı rəssam bir çox Respublika və Beynəlxalq miqyaslı sərgilərdə iştirak edərək orjinal əsərləri ilə diqqət çəkib. Onun əsərləri Azərbaycan, Rusiya, Amerika və başqa ölkələrdə kolleksiyalarda qorunub saxlanır.

O, hər zaman düşündüyü mövzulara könül duyğularını qata-qata ağac üzərinə köçürür və gözəl əsərlər ərsəyə gəlir. Təqdim etdiyi hər bir əsər öz təxəyyülünün məhsulu kimi hasilə yetir, təkrarsız olur. Onun sənətinin özünəməxsus sirr kodları var. Məlumdur ki, oyma işlərində əsasən qiymətli ağac növlərindən istifadə edilir. Qoz, palıd, cökə və çinar oduncağı gərək olur. Bir əsəri ərsəyə gətirmək üçün ən azı 25-30 gün vaxt lazımdır.

Saləddin Məhərrəmovun əsərlərində görünən tərəflər və görünməyən gizlinlər çoxdur. Nəzərdə tutulan mətləbi, sözü ifadə vasitələri sirli-sehirlidir. Bunları səs və ahənglə, rəng və çalarlarla ifadə etmək mümkün deyil. Onun naxış dili bir ayrı dildir. Bəzən zərif, bəzən də kobud görünə bilən naxışlar belə sanki sehirli məktub parçalarıdır. Sadəcə, işarələri anlamaq, naxışları duymaq gərəkdir ki, bu "məktub"ları oxuya biləsən.

Ustad sənətkarla çox zaman sərgilərdə görüşürük. Hərdən olur ki, əlimlə onun əsərlərinə toxunur, barmaqlarımı onun əlindən həyat iksiri almış, sevgi dolu naxışlarda gəzdirirəm. Bu zaman ustadın əllərinin hərarətini hiss edirəm. Daşa dönmüş ağac parçası belə heç vaxt soyuq olmur. Bu hərarət, bu ülvi eşq həmin əsərlərin üzərində rəssamın "imza"sıdır.

Saləddin Məhərrəmovun uğurları "Zaqafqaziya gənc rəssamların qrafika və rəngkarlıq əsərlərindən ibarət sərgilər"də, "Dekorativ tətbiqi sənət sərgiləri"ndə, "Xalq yaradıcılığı-Qədim sənətlər silsiləsində" eləcə də "Tətbiqi sənət ustalarının işlərində İslami dəyərlər çərçivəsində" təşkil olunan sərgilərdə təsdiqini taparaq möhürlənib. Təbiət kompozisiyalarını, eləcə də fəlsəfi və mistik həyatı yaradıcılığında geniş əks etdirən sənətkar bu günə kimi 60-dan artıq sənət əsərini ustalıqla ərsəyə gətirib. Onun "Qədim yurd yerlərimiz", "Mənim Kəpəzim", "Nar budağı" və digər əsərləri son dərəcə maraqla qarşılanıb.

Bu gün ustad sənətkar həmçinin tarixi şəxsiyyətlərin portret cizgilərini özündə əks etdirən orijinal səpkili silsilə əsərlər üzərində işləyir. "Nizami Gəncəvi", "Şah İsmayıl Xətai", "Cavad xan", "Səlahəddin Əyyubi" kimi ağac üzərində oyma portretlər bunun uğurlu nümunələridir.

Vətən müharibəsi və bu tarixin Zəfər salnaməsi də sənətkarın yaradıcılıq aləmində mühüm yer tutur. "Ana bətnindən dəmir yumruqla gələn Azərbaycan əsgəri", "Ömər aşırımı", "Xüdafərin körpüsü", "Qarabağ mənzərələri", "Alban türk məbədləri", "Ana məhəbbəti", "Şəhid anasının ürəyi" kimi orijinal oyma işləri tarixi Zəfərin sənət salnaməsinə çevrilib.



Bir sözlə, Saləddin Məhərrəmov yaradıcılığında ənənəvi xətti perspektiv ideya ilə çulğalaşdıra, klassikanı intuitiv olaraq reallıqla harmoniyada yarada bilir.

***Anar Ərtoğrul BURCƏLİYEV***
**Gəncə**

Xalq qəzeti .- 2024.- 14 mart, № 57.- S.10.